# 9 Noyabr – Dövlət Bayrağı Günü

***(Daycest)***

**Bakı – 2023**

**Bayraq** - bir ölkəni, təşkilatı, quruluşu və ya birliyi işarələyən, əsasən parçadan olan, dövlət rəmzi olub, müharibələr, inqilablar, nümayişlər zamanı öndə, insanların başı üzərində aparılan, müxtəlif rəsmi təşkilatların binalarının qarşısında dirəyə asılan və həmin təşkilatı təmsil edən, Vətən uğrunda şəhid olanların qəbirləri üzərinə salınan dövlət atributudur. Ölkəmizə ilk dəfə üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib.

**Mavi rəng** - Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

**Qırmızı rəng** - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə edir. XVIII əsrin sonlarında Fransa Burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrildi.

**Yaşıl rəng** - İslam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var.
Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra həmin gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və həmin dində olan başqa xalqlara da keçib. Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə bu, “Azərbaycan” sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada “Azərbaycan” sözü səkkiz hərflə yazılır.

Tarixdə səkkizguşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə-səkkiz türk xalqının simvoludur.

## Azərbaycan Respublikasının Konstitusiyasından çıxarış:

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

## Görkəmli şəxsiyyətlər bayraq haqqında

“Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyisə, o, bu bayraq altında birləşməlidir”

“Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin”

**Heydər Əliyev**

“Bizim bayrağımız qürur mənbəyimizdir, bizim bayrağımız canımızdır, ürəyimizdir!”

**İlham Əliyev**

“Ey gənclik! Ey əsrimizin Siyavuşunun böyümüş oğlu! Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki: - Bir kərə yüksələn bayraq bir daha enməz! Bunu deyərkən o, bu günkü öksüzanə mənzərəni hesaba almamış deyildi. Bu onun tərəfindən təsəvvür olunmuşdu. O, sənin o zaman bu bayrağı gənc çiyinlərinə alıb məsumanə bir tərzdə küçə-küçə dolaşaraq: “Irəli, irəli Azərbaycan əsgəri” – deyə əsgər kimi addım atmağını görmüşdü və bu sözü cəsarətlə söyləmişdi. Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıqlı türkülərinə mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək, Böyük Dəmirçinin geri dönüşünü görüncə onun tərəfinə keçəcək, bu yolda ya qazi, ya şəhid olacaqsan”

“Bir kərə yüksələn bayraq, bir daha enməz!

**Məhəmməd Əmin Rəsulzadə**

“Mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün türk aləmində türkün istiqlal bayrağını sən qaldırmısan və bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. Enməz demisən bu bayraq, enməyəcəkdir!” (Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə haqqında)

**Atatürk**

“Mən bayrağın kimlərin əlində olduğunu bilməsəm, heç bir sədaqət andı içmərəm”

**Piter Ustinov**

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif illərdə “Bayraq Günü” münasibətilə keçirilmiş tədbirlərdən şəkillər**
















# Ədəbiyyat siyahısı

## Kitablarda

Dəyərlərimiz. – Bakı : İpəkyolu, 2015. – 163 s. – S. 4-5.

**Dilsuz.** Azərbaycan bayrağı. - Bakı : Beşik, 2008. - 18 s.

Dünya Dövlətlərinin Bayraqları : Atlas. - Bakı : Qanun, 2018. - 20 s.

**Mərdanov M**. Azərbaycan Respublikasının Dövlət rəmzləri : Soraq kitabı. - Bakı : Çaşıoğlu, 2010. - 288 s.

## Bədii ədəbiyyatda

**Cavad Ə**. Al bayrağa : şeir // Füyuzat. - 2018. - № 6. - S. 24-25.

**Hacıyeva F**. Bayrağımı sevirəm ; Şəhidlər xiyabanı ; Hara aparır və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 3 iyun. - № 21. - S. 26.

**Məhsəti Ə.** Dalğalan bayrağım : şeir // Respublika. – 2020. – 3 oktyabr. – S. 6.

**Məmmədzadə R.** Bu bayraq : şeir // Ədəbiyyat qəzeti. - 2014. - 17 yanvar. - S. 7.

**Qiyas Ə.** Bayraq : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - S. 21.

**Rüstəmxanlı S**. Bayrağım // 525-ci qəzet. - 2019. - 9 noyabr. - № 149. - S. 21.

**Ustac Z**. Bayraq bizim bayrağımız ; Araz ; Mən zəfərə təşnəyəm və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 7 yanvar. - № 1. - S. 15.

**Vahabzadə B**. Bayrağım // 525-ci qəzet. - 2019. - 9 noyabr. - № 149. - S. 21.

**Vüsal B.** Döyüşən bayraq : şeir // 525-ci qəzet. – 30 oktyabr. – S. 14.

**Zəngilanlı O.** Azərbaycan bayrağıdır : şeir // Respublika. – 2013. – 9 noyabr. – S. 5.

## Dövrü mətbuatda

**Abbaslı T**. Bayraq... Bayraq!... Bayraq!!! : eycahanlıqda pırıl-pırıl pıçıldayaraq, tədbirlərdə qürrələnərək, döyüşlərdə hayqıraraq... // Mədəniyyət. - 2016. - 9 noyabr. - № 85. - S. 13.

**Ağaşahqızı Y**. 9 noyabr: Azərbaycan dövlətçiliyi tarixinin mübarizlik, şərəf, fəxarət günü // İki sahil. - 2020. - 7 noyabr . - № 199. - S. 12.

**Ağaşahqızı Y**. Bayrağım - öz yurduma öz hakimliyim // İki sahil. - 2019. - 8 noyabr. - № 207. - S. 11.

**Albəndov V**. Üçrəngli bayrağımız daim zirvələrdə dalğalanacaq : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2020. - 8 noyabr. - № 233. - S. 6.

**Alpoğlu A**. 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür : "...Üçrəngli bayrağınla məsud yaşa!..." // 525-ci qəzet. - 2019. - 9 noyabr. - № 149. - S. 21.

Ay-ulduzlu Azərbaycan bayrağı qürur mənbəyimizdir // Səs. - 2019. - 13 noyabr. - № 209. - S. 12-14.

**Babayev E**. Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan Azərbaycan Bayrağı // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 16.

**Bayrağımız - milli** qürur mənbəyimiz : Əli Həsənov "Facebook" səhifəsində "Bayrağımız - milli qürur mənbəyimiz" adlı status paylaşıb // Xalq qəzeti. - 2019. - 9 noyabr. - № 250. - S. 1.

**Bayramova Z**. 9 Noyabr Dövlət Bayrağı Günüdür // Səs. - 2021. - 6 noyabr. - № 204. - S. 8.

**Cəfərli R**. İstiqlalın rəmzi // Azərbaycan : qəzet. - 2019. - 9 noyabr. - № 250. - S. 1-2.

**Cəfərov İ**. Bayrağımız-fəxrimiz, şərəfimiz və qürur mənbəyimizdir // Respublika. - 2018. - 9 noyabr. - № 251. - S. 5.

**Əhmədov F**. İstiqlalımızın rəmzi : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2020. - 8 noyabr. - № 233. - S. 5.

**Ələddinqızı N**. 9 Noyabr Dövlət Bayrağı Günüdür : Ən yüksək zivələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir // Səs. - 2019. - 9 noyabr. - № 208. - S. 11.

**Ələddinqızı N**. Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi : 1991-ci il fevralın 5-də üçrəngli Bayrağımız Dövlət bayrağı kimi yenidən qəbul edildi // Səs. - 2023. - 4 fevral. - № 21. - S. 6.

**Əlioğlu Ç**. Sənindir bax, bu döyünən ürəklər... // 525-ci qəzet. - 2019. - 9 noyabr. - № 149. - S. 21.

**Əliyev N**. Bayraq qürur yerimiz, dövlət rəmzimiz, milli kimliyimizdir : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2020. - 8 noyabr. - № 233. - S. 5.

**Əliyev V**. Bayrağımızın ucaldığı, müstəqilliyimizin tanındığı gün - 9 Noyabr // Mədəniyyət. - 2018. - 9 noyabr. - № 82. - S. 1, 6.

**Əliyeva İ**. Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Azərbaycan : qəzet. - 2020. - 8 noyabr. - № 233. - S. 1, 4.

**Əliyeva Y**. Bayrağımız qürurumuz, dəyərimizdir : 9 Noyabr Dövlət Bayrağı Günüdür! // İki sahil. - 2019. - 9 noyabr. - № 208. - S. 9.

**Əliyeva Z**. Bayrağıma qurban olum // Səs. - 2018. - 13 noyabr. - № 214. - S. 12.

**Eyyubova G**. Harda əcdadımın ayaq izi var, bu zəfər bayrağım orda ucalsın // İki sahil. - 2022. - 6 noyabr. - № 205. - S. 4.

**Faxralı R**. Əllərdə, könüllərdə və dillərdədi bayraq!. // İki sahil. - 2019. - 19 noyabr. - № 213. - S. 15.

**Fərəcova Z**. Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır // Azərbaycan : qəzet. - 2021. - 7 noyabr. - № 242. - S. 8.

**Hacalıyev E**. İstiqlalımızın rəmzi : 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür // Azərbaycan : qəzet. - 2016. - 9 noyabr. - № 248. - S. 1, 5.

**İbrahimli F**. Üçrəngli bayrağımız müstəqil dövlətimizin varlığının ifadəsidir // Səs. - 2018. - 9 noyabr. - № 213. - S. 9.

**İsmayılov R**. Qürur mənbəyimiz bayrağımız : Azərbaycan bayrağı xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqlik rəmzidir // Kaspi. - 2020. - 7 noyabr. - № 151. - S. 3.

**Kamal M**. Qürurumuz, iftixarımız, yenilməyən ruhumuz // Respublika. - 2022. - 5 fevral. - № 26. - S. 7.

**Kamalqızı R**. Dövlətçiliyin və müstəqilliyin müqəddəs rəmzi // Səs. - 2018. - 9 noyabr. - № 213. - S. 5.

**Məhərrəmova T**. Ey sevgili bayrağımın o dalğalı duruşu! : Bayrağım varsa, deməli, dövlətim var, vətənim var // Kaspi. - 2019. - 9-12 noyabr. - № 208. - S. 7.

**Məmmədov F**. Bayrağımız qürur mənbəyimizdir // Respublika. - 2019. - 6 noyabr. - № 246. - S. 1-2.

**Məmmədov M**. Müstəqilliyimizin rəmzi : 9 noyabr - Dövlət Bayrağı Günüdür // Xalq qəzeti. - 2015. - 5 noyabr. - № 243. - S. 12.

**Məmmədov S**. İstiqlal mübarizəmizin şanlı nişanəsi // Xalq qəzeti. - 2019. - 9 noyabr. - № 250. - S. 1-2.

**Mənsimov K**. Azərbaycan bayrağı həm də Lider-xalq vəhdətinin rəmzidir // Respublika. - 2020. - 13 noyabr. - № 236. - S. 9.

**Mirələmov H**. Üçrəngli bayrağınla məsud yaşa... // Azərbaycan : qəzet. - 2015. - 8 noyabr. - № 246. - S.3, 11.

**Mirzə M.** Dövlətçiliyimizin və müstəqilliyimizin rəmzi // Respublika. - 2021. - 7 noyabr. - № 242. - S. 14.

**Mirzə M**. Qalibiyyət simvolumuz // Respublika. - 2022. - 5 fevral. - № 26. - S. 7.

**Mirzə M.** Yenilməzlik rəmzi : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2022. - 6 noyabr. - № 244. - S. 14.

**Mirzəyev Ə**. Müstəqilliyimizin və dövlətçiliyimizin rəmzi - Azərbaycan Bayrağı // Səs. - 2019. - 7 noyabr. - № 206. - S. 11.

**Musayeva Y**. Heç zaman enməyəcək müstəqillik rəmzi : Kölgənin düşdüyü hər yer vətəndir // Azərbaycan : qəzet. - 2018. - 9 noyabr. - № 253. - S. 3.

**Nəbiyev A**. Tariximizin şanlı səhifəsi : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2019. - 7 noyabr. - № 247. - S. 4.

**Nəzakət.** 9 Noyabr Dövlət Bayrağı Günüdür // Səs. - 2016. - 9 noyabr. - № 206. - S. 2-3.

**Qasımov Ə**. Dövlət Bayrağımız - qürur mənbəyimiz, and yerimiz : 9 Noyabr Dövlət Bayrağı Günüdür // 525-ci qəzet. - 2020. - 6 noyabr. - № 148. - S. 11.

**Qasımov R**. Bayraq kimliyim, bayraq mənliyimdir : Azərbaycanı sevənlər bu bayraq altında birləşməlidir // Kaspi. - 2017. - 9-10 noyabr. - № 189. - S. 15.

**Qəniyeva Z**. Dövlət rəmzləri və onların tədbirlərdə istifadəsi, yerləşdirilməsi haqqında // Mədəniyyət.az. - 2017. - № 312. - S. 88-90.

**Qoşalı Ə**. Odlar diyarının zəfər bayrağı // Xalq qəzeti. - 2019. - 9 noyabr. - № 250. - S. 7.

**Quliyev İ**. Üçrəngli bayrağımız qürur mənbəyimizdir : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2019. - 9 noyabr. - № 249. - S. 5.

**Quliyev T**. Qaliblər Bayrağı - Azərbaycan Bayrağı : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2020. - 8 noyabr. - № 233. - S. 5.

**Qurbanqızı Z**. Üçrəngli bayrağınla məsud yaşa... : 9 Noyabr Dövlət Bayrağı Günüdür // Respublika. - 2022. - 6 noyabr. - № 244. - S. 14.

**Rəhimov N**. Qələbə soraqlı Azərbaycan Bayrağı : Hər bir əsgərin arzusu azad olunmuş torpaqlarımıza yenidən Azərbaycan bayrağını sancmaqdır // Azərbaycan Müəllimi. - 2020. - 6 noyabr. - № 37. - S. 8.

**Rəşid L**. Vətən eşqini yaradan və yaşadan Azərbaycan bayrağı : Azərbaycan bayrağı işğaldan azad olunmuş ərazilərdə dalğalanacaq // Xalq qəzeti. - 2020. - 8 noyabr. - № 233. - S. 5.

**Sadıqov Ə**. Üçrəngli bayrağımız daim zirvələrdə dalğalanır // Respublika. - 2021. - 7 noyabr. - № 242. - S. 14.

**Salmanlı R**. Qələbə rəmzi // Azərbaycan : qəzet. - 2020. - № 233. – S. 3.

Üçrəngli bayraqlar // Savalan. - 2023. - 5-11 sentyabr. - № 30. - S. 5.

**Tərtib etdi:** **Ağayeva İranə**

